UOT 94 (479.24); 30:314; 39

AZƏRBAYCAN XALÇA NAXIŞLARINDA XALQIMIZIN ƏHALİ ARTIMI İLƏ BAĞLI TARİXİ DEMOQRAFİK BAXIŞLARI

Aydın Məmmədov
Tarix üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti
Bakı, Azərbaycan
aydin.mmmdov.67@ mail.ru
Orcid ID: 0000-0003-1825-0356-2570

Xülasə

Azərbaycan xalçaları istər qədimliyinə, istərsə də ənənəvi toxunuşuna, naxışlarının zənginliyinə, rəng müxtəlifliyinə, qeyri-adi gözəlliyinə görə dünyada ən çox yayılan və analoqu olmayan, unikal sənət əsərləridir. Məhz buna görə də, Azərbaycan xalçaları mövzu müxtəlifliyi, təkrarolunmaz naxışları, xalqımızın qədim adət və ənənələrindən qidalanan dərin məna çalarları ilə heç zaman öz aktuallığını itirmir. Azərbaycan xalçalarında təsvir olunan naxış elementləri xalqımızın təbiətə və cəmiyyətə münasibətini, o cümlədən nəsil artımı ilə bağlı qayğılarını, övladcanlılığını, ailə fəlsəfəsini, həyat tərzini real şəkildə əks etdirir. Azərbaycan xalçalarında tez - tez rast gəlinən həyat ağacı təsviri yer üzündə həyatın başlanğıcını,uğuru, sevinci, xoş güzəranlı həyatı, əhali artımını, demoqrafik inkişafı, məhsuldarlığı və tərəqqini ifadə edir. Azərbaycan xalçaları xalqımızın təbiətini, doğma yurdumuzun tarixini, etnoqrafik özəlliklərini, adət-ənənələrimizi, həyat fəlsəfəsini zəngin rəng çalarları ilə orijinal bir tərzdə əks etdirən özünəməxsus sənət nümunələridir. Azərbaycan xalçaları eyni zamanda müxtəlif amillərin (məsələn, təbii-coğrafi) əcdadlarımızın həyat tərzinə, gündəlik məişətinə necə və hansı formada təsir etdiyini, o cümlədən xalqımızın hələ tarixin erkən çağlarından üzü bəri məşğul olduğu müxtəlif təsərrüfat sahələrinin bir-biri ilə bağlılığını da aydın şəkildə göstərir. Məqalədə Azərbaycan xalçaları və onlardakı naxışlarda xalqımızın əhali artımı, ailə təsəvvürləri, adət-ənənələri tarixi demoqrafiya kontekstində araşdırılır.

Açar sözlər: Azərbaycan xalçaları, əhali artımı, ailə modeli, adət və ənənələr, tarixi demoqrafiya.

HISTORICAL DEMOGRAPHIC VIEWS ON THE POPULATION GROWTH OF OUR PEOPLE IN AZERBAIJANI CARPET PATTERNS

Aydin Mammadov
Doctor History on Philosophy, ass. Prof.
Baku State University
Baku, Azerbaijan

Summary

Azerbaijani carpets are the most widespread and unique works of art in the world due to their antiquity and traditional weaving, richness of patterns, variety of colors and extraordinary beauty. That is why Azerbaijani carpets never lose their relevance due to the variety of themes, unique patterns, deep semantic shades, nurtured by the ancient customs and traditions of our people. The elements of the pattern depicted on Azerbaijani carpets realistically reflect the attitude of our people to nature and society, as well as their concern about population growth, love and care for children, family philosophy and lifestyle. The image of the tree of life, buta, sheep, horns and many elements that are often found on Azerbaijani carpets symbolize the beginning of life on earth, success, joy, well-being, population growth, demographic development, productivity and progress. Azerbaijani carpets are unique art examples that reflect the nature of our people, the history of our homeland, ethnographic features, traditions, philosophy of life in an original way with rich colors. At the same time, Azerbaijani carpets clearly show how and in what form various factors (for example, natural-geographical) influenced the lifestyle and daily life of our ancestors, including the interconnectedness of various economic fields that our people have been engaged in since the early ages of history. In the article, theviews of our nation on population growth, population settlement, family concepts that reflected on patterns of Azerbaijani carpets are examined in the context of historical demography.

Keywords: Azerbaijani carpets, population growth, family model, customs and traditions, historical demography.

ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЕ ВЗГЛЯДЫ НА РОСТ НАСЕЛЕНИЯ НАШЕГО НАРОДА В УЗОРАХ АЗЕРБАЙДЖАНСКИХ КОВРОВ

Айдын Мамедов
Кандидат исторических наук, доцент
Бакинский Государственный Университет
Баку, Азербайджан

Резюме

Азербайджанские ковры – самые распространенные и уникальные произведения искусства в мире благодаря своей древности и традиционному ткачеству, богатству узоров, разнообразию красок и необычайной красоте. Именно поэтому азербайджанские ковры никогда не теряют своей актуальности благодаря разнообразию тем, неповторимым узорам, глубоким смысловым оттенкам, взращенным древними обычаями и традициями нашего народа. Элементы узора, изображенные на азербайджанских коврах, реалистично отражают отношение нашего народа к природе и обществу, а также его озабоченность по поводу роста населения, любовь и забота о детях, семейной философии и образа жизни. Изображение древа жизни, буты, овца, рога и многие элементы которые часто встречается на азербайджанских коврах, символизирует начало жизни на земле, успех, радость, благополучие, рост населения, демографическое развитие, продуктивность и прогресс. Азербайджанские ковры являются уникальными образцами искусства, которые оригинально и сочными красками отражают природу нашего народа, историю нашей Родины, этнографические особенности, традиции, философию жизни. В то же время азербайджанские ковры наглядно показывают, как и в какой форме различные факторы (например, природно-географические) влияли на образ жизни и повседневную жизнь наших предков, в том числе взаимосвязь различных экономических сфер, которыми занимался наш народ со времен ранние периоды истории. В статье взгляды нашего народа на рост населения, народонаселения, семейные представления, отразившиеся в узорах азербайджанских ковров, рассматриваются в контексте исторической демографии.

Ключевые слова: Азербайджанские ковры, рост населения, модель семьи, обычаи и традиции, историческая демография.

Aktuallıq. Azərbaycan dünyanın ən qədim xalçaçılıq mərkəzlərindən biridir. Təsadüfi deyil ki, hələ ta qədimlərdən Azərbaycan xalçaları nəinki valehedici bir predmet olaraq diqqəti cəlb etmiş, eyni zamanda hərtərəfli tədqiq edilib öyrənilmişdir. Hələ e.ə. V əsrdə Azərbaycan xalçaları haqqında ilk məlumatlara qədim yunan alimi Ksenofontun əsərlərində rast gəlinir. Sonralar xalçalarımız haqqında qiymətli məlumatları orta əsrlərdə Azərbaycanda olmuş ərəb, İran, Avropa səyyahları vermişlər. Azərbaycan xalçaları xalqımızın zəngin mədəniyyət incisi və ümumbəşəri dəyər kimi öz aktuallığını bu gün də qoruyub saxlamaqdadır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı ildə "V Beynəlxalq Azərbaycan xalçası simpoziumunun Bakı şəhərində keçirilməsi haqqında", 2018-cı ildə "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" və d. bu kimi sərəncamlar imzalaması, 2021-ci ildə görkəmli xalçaçı-rəssam Kamil Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi, 2023-cü ildə Milli Xalça Muzeyinin Şuşa filialının açılması kimi faktlar bunu bir daha təsdiq edir.

Annotasiya. Azərbaycan xalçalarında xalqımızın ən qədim dövrlərdən bəri əhali artımı, nəslin himayəsi, ailə dəyərləri və d. tarixi demoqrafik baxışları öz əksini tapmışdır.

Metod. Məqalədə müqayisəli təhlil, təsviri və qarşılaşdırma metodlarından istifadə edilmişdir.

Giriş. Azərbaycan xalçaları təbiətimizi, doğma yurdumuzun tarixini, etnoqrafik özəlliklərini, adət-ənənələrimizi, fəsləfəmizi zəngin rəng çalarları ilə orijinal bir tərzdə əks etdirən unikal sənət nümunələridir. İnsanın əmələ gəldiyi ilk dövrlərdə süni işıq olmamışdır. Azərbaycan xalçaları zəngin rəng koloriti, dərin məzmunu ilə işığın, qədim əcdadlarımızın və nəsil artımının himayədarı olan Günəşin, Al ruhun mücəssəməsidir. Belə ki, qədimlərdə insanlar ancaq Günəş və Ay işığından istifadə etmişlər. Günəş və Ay işığı olmadıqda isə onlar zülmət kimi qaranlıqda qalmışlar. Ona görə də qədim əcdadlarımız Günəşə və Aya sitayiş etmiş, onların çıxması münasibətilə qurbanlar kəsmişlər. Günəşə sitayiş, yaxud Günəş kultu ilk əcdadlarımızın təbiətlə, ətraf aləmlə münasibətlərindən, işığa, istiyə olan tələbatlarından doğmuş və minilliklər boyu insan təfəkküründə,

sakral düşüncə tərzində, o cümlədən Azərbaycan xalçalarındakı qırmızı, sarı, narıncı, turuncu rəngli əlvan naxışlarda əbədiləşərək onunla birgə uzun tarixi inkişaf yolu keçmişdir.

Azərbaycan xalçalarında Günəş kultu ilə bağlı elementlərdə xalqımızın tarixi demoqrafik baxışları. Günəş kultu Azərbaycanın ən qədim kultlarındandır. Bu kult tunc dövründə çox böyük tərəqqi tapmışdı. Dədələr (atalar) kultu ortaya çıxandan sonra, dədələr də günəş qüdrətli, onun kimi himayəkar hesab edilir və ona görə də onların adı çox zaman günəş sözü ilə yanaşı çəkilirdi. Həmçinin tədqiqatçılar arasında Azərbaycan ərazisində təsadüf edilən kromlex tikililərin də Günəş kultu ilə əlaqədar olması və Günəş məbədi vəzifəsini daşıma sına dair fikirlər mövcuddur. Məşhur xalçaçı-rəssam Lətif Kərimov haqlı olaraq, milli xalçalarımızda buta elementinin təsvir olunmasını Günəş kultu və atəşpərəstliklə bağlayır [8.58-59].

Azərbaycanda Səfəvilərin hakimiyyəti dövründə belə, soydaşlarımızın şüurunda günəşə etiqadın dərin izlər buraxdığını J.Şardənin qeydlərində aşkar görə bilərik. O yazır ki, İslam təqviminin ilk ayı olan: "Məhərrəmlik ayının ilk on günü ictimai matəm günləri olduğu üçün ilin ilk gününü təntənəli surətdə bayram etmək ənənəsi ildən ilə zəiflədi, nəhayət dəbdən düşdü. Günəş təqviminə görə, yeni ilin bayram edilməsi qaydasını saxlamaq istəmirdilər. Ölkənin əhalisi buna qarşı çıxdı və özünün qədim atəşpərəst dinində təkid etdi. Xalq ilin ilk gününü günəşə həsr edilmiş dini bayram kimi keçirirdi" [12.47]. J.Şardən fikrinə davam edərək: ". Yeni il bayramını günəş ilinin ilk gününə təyin etmək lazım gəlirdi. Bu gün həmişə bahara, ilin ən yaxşı fəslinə, hər şeyin yenidən təzələnməsi dövrünə düşürdü." – deyə, yazırdı [12.47]. Doğrudan da, Günəş kultu ilk növbədə, xalqımızın qədim inanclar sistemi ilə bağlıdır. Belə ki, xalqımız qışda donmuş torpağın və suyun yazda canlanmasını, təbiətin oyanışını doğumun ölüm üzərində qələbəsi kimi səciyyələndirirdi. Yaz fəslində təbiətdəki bu canlanma cəmiyyətin sosial-iqtisadi həyatına təsirsiz ötüşmədiyi üçün insanların mənəvi aləmində də öz inikasını bu və ya digər formada tapırdı. Bir çox türkdilli xalqlarda təbiətin oyanışı demoqrafik artım, məhsuldarlıq, xeyir-bərəkət kimi dəyərləndirilirdi: Orta Asiya xalqlarının mədəni həyatının ilkin inkişaf pillələrində hər il ölən və dirilən təbiəti simvolizə edən, Soqdla sıx şəkildə bağlı olan Siyavuş tanrısı olmuşdur.

Tarixçi Nərşahiyə görə, Buxarada islamın qələbəsindən hətta bir neçə əsr sonra – X əsrdə baharın gəlişi ilə bağlı Səyavuşa qurbanlar gətirilir, onun qışda ölümü ilə bağlı qəmli mahnılar oxunur, yazda yenidən dirilməsi ilə bağlı şənliklər keçirilirdi [19.255]. Əgər, islam dininin hakim olduğu X əsrdə Siyavuş kultunun hələ də mövcudluğunu qoruya bilmişdirsə, bu qədim inancların insanların təfəkküründə nə qədər böyük rol oynadığını aşkar şəkildə təsdiq edir. Elə bu səbəbdəndir ki, baharı simvolizə edən elementlər bir çox türkdilli xalqların, o cümlədən azərbaycanlıların tətbiqi sənət nümənələrində üstünlük təşkil edir.

I Xosrovun (531-579) hakimiyyəti illərində onun romalılar üzərindəki qələbəsi şərəfinə toxunmuş, uzunluğu 140 m, eni 27 metr olan "Bahar xalçası" təbiətdə yazın gəlişi ilə bağlı dəyişiklikləri real əks etdirir. Əsasən, qızılı və gümüşü ipək saplardan toxunan bu xalçada torpağın canlanmasını, suyun axınını daha dinamik, canlı təsvir etmək üçün şəffaf, qiymətli daşlardan, o cümlədən yaşıl, təzə-tər otları sözügedən kompozisiyada ön plana çəkmək üçün zümrüd daşlarından istifadə olunmuşdur. Bir çox tədqiqatçılar belə hesab edirlər ki, xalçalarda baharın gəlişini əks etdirən oyanmış, canlanmış torpaq və su elementləri də, biləvasitə nəsil artımı ilə, məhsuldarlıqla sıx şəkildəbağlıdır: "İnsanlar əkinçiliklə məşğul olduqları ilk günlərdən torpağa adi təbiət elementi kimi deyil, onları dünyaya gətirən, onları yedirdən, bəsləyən ana kimi - həyatın mənbəyi kimi baxırdılar. Belə
ehtimal etmək olar ki, qadın – ana obrazı, elə günəş, torpaq və su ilə eyniləşdirilərək müqəddəsləşdirilmişdir [17. 59].

Arxeoloq R.Göyüşov, Üzərliktəpədən tunc dövründə yaşamış əcdadlarımızın dini görüşlərini öyrənmək üçün elmi baxımdan son dərəcə maraqlı olan bir tapıntıdan – qadın bütündən bəhs edərək yazırdı: "Üst təbəqədə daşdan düzəldilmiş ocağın içərisindən tapılmış bu büt yerli əhali arasında bütpərəstliyin yayıldığını sübut edir. Bu dövrdə qadın bütləri çoxluq təşkil edir ki, bu da ananın nəsil artırma rəmzi və ya ona həyatın başlanğıcı kimi baxılması ideyasından irəli gəlmişdir" [7.25-26].

Qız qalalarının tikintisi və təyinatı ilə bağlı maraqlı mülahizələr irəli sürən tədqiqatçı Q.Cəbiyev yazır: "Nəhayət, bir qrup araşdırıcılar Qız qalalarındakı "qız" sözünü qədim Şərqdə

müqəddəs hesab edilən su ilahəsi Anahid ilə əlaqələndirirlər, həm də bu qız qalaları haqqında dərc olunmuş sonuncu mülahizədir" [4.90]. Məhz buna görə də, Azərbaycan xalçalarında nəsil artımını, toy-düyünü, məhsuldarlığı himayə edən günəşin, odun, istinin rəngi olan al, qırmızı rəng, suyu ehtiva edən mavi rəng, qaranlığa, şərə qarşı qoyulan ağ rənglər üstünlük təşkil edirdi.

Dünyanın bir çox məşhur muzeylərində Azərbaycan xalqına məxsus son dərəcə qiymətli sənət nümunələri, o cümlədən xalçalarımız saxlanılır. Xalqımızın nadir sənət nümunələrinin saxlanıldığı yerlərdən biri də Böyük Britaniyadakı Viktoriya və Albert muzeyində tapılmışdır. Viktoriya və Albert muzeyində nümayiş etdirilən xalçalar içərisində 1539-cu ildə Təbrizdə şah Təhmasibin sifarişi ilə Ərdəbil məscidi üçün toxunan və sənət aləmində "Şeyx Səfi" adı ilə məşhur olan bu xalça sənətkarlıq baxımından Azərbaycan ustalarının ərsəyə gətirdiyi ən orijinal əsərlərdən biridir. Bu xalçanın kompozisiya həlli olduqca maraqlıdır. Bəzəkləri müxtəlif gül-çiçəklərdən ibarət olan bu xalçanın mərkəzindəki medalyon çoxguşəli mozaikadan ibarətdir. Bədii baxımdan qönçəyə bənzər bu mozaika xalqımızın günəş inancı ilə sıx surətdə bağlıdır. Xalçanın rəng həllində əsasən, baharın, əhali artımının, təbiətdə yenilənməyin, məhsuldarlığın, simvolu olan yaşıl, nəsil artımını himayə edən, onu şər qüvvələrdən qoruyan Umayın, günəşin rəngi olan qırmızı və sarı rənglər üstünlük təşkil edir. Bir sıra tədqiqatçılar haqlı olaraq sözügedən xalının mərkəzindəki bu böyük qönçəni günəşə bənzədirlər: "Xalıda rənglər ardıcıl olaraq, rəngşünaslıq elminin tələbləri əsasında elə düzgün yerləşdirilmişdir ki, bu böyük qönçə günəşi, ətrafındakı kiçik qübbələr isə şüaları xatırladır" [5.76].

Şeyx Səfi xalşası

Bundan başqa, Azərbaycanda günəş inancı ilə əlaqədar ər evinə köçən qız-gəlinləri sakral rəqəm sayılan yeddi dəfə günəşin simvolu sayılan çırağın, qəndilin başına dolandırırlar. Təbii ki, bu adət biləvasitə ər evinə köçən gəlinin yeni evə - ocağa xeyir, bərəkət, səadət gətirməsi, həmin ocağın nəslini artırmaq istəyindən, diləyindən irəli gəlirdi. Digər tərəfdən odun, çırağın, qəndilin ətrafına dolanmaq, üstündən atlanmaq, bir sözlə günəşin yerdəki bəlgəsi, simvolu odla, alovla əlaqədə olmaq bəxtin açılmasına, insanın ailə həyatı quraraq xoşbəxt olması anlamına gəlir. Bir folklor nümunəsində deyildiyi kimi:

Yansın, alov saçsın,
Mənim bəxtim açılsın [1.31].

Şeyx Səfi xalçasında, xalının ara sahəsinin yuxarı və aşağı hissələrində böyük, zəngin, bəzəkli, qırmızı və şəkəri rəngli qəndil təsvirləri bir daha yuxarıda deyilən fikirləri təsdiq edir. Qeyd etmək yerinə düşərdi ki, qız-gəlinlərin əl-ayaqlarının xına ilə boyanması adəti də, günəşin bəlgəsi olan qırmızı rəngin mifik, hami qüvvəsinə inamla bağlı idi. Zəkəriyyə əl-Qəzvini özünün "Əsar əl-bilad və əxbar əl-ibad" əsərində yazır: "Gəncə Daruran çayının üzərində yerləşir. Daruranın yanında qalaya oxşayan yumru qaya var. Qaya pasa oxşayan yaş mamırla örtülüb; xına kimi əl-ayağı boyayır. Qəribədir ki, mamır yalnız boyanmaq istəyən adam həmin qayanın üstündə oturduqda o cür olur. Onu başqa yerə apardıqda heç nə alınmır. Deyirlər ki, adamlar gəlinin əl-ayağını boyamaq istədikdə onu qayanın üstünə gətirirlər" [13.160]. Bu zaman belə bir sual yaranır: nə üçün gəlinə əziyyət verib onu hündür qayanın üzərinə çıxarırdılar? Təbii ki bu, gəlinin köçəcəyi evə övlad sevinci, ailə səadəti gətirməsi üçün qırmızı rəngə - qədim inanclarımızdan olan Günəşə, Al ruha tapınması ilə əlaqədar idi.

Yuxarıda deyilənlər, Azərbaycan xalçalarının rəng seçiminin xalqımızın qədim etiqad və inanclarının təsiri altında formalaşmasını, rənglərin qədim adət və mərasimlərimizin simvolikası ilə sıx bağlılığını əyani şəkildə sübut edir. Məhz bu kontekstdə, al qırmızı, sarı, narıncı rənglərin üstünlük təşkil etdiyi xalçaların əhali artımı ilə bağlı nişan, toy, uşağın dünyaya gəlməsi kimi adət və ənənələrlə bağlı mərasimlərdə mütləq iştirakının şahidi oluruq. Elə Vətənimizin demək olar ki, bütün bölgələrində qurulan toy mağarlarında, bu gün də üzərində "Toyun mübarək!" yazılmış əlvan xalçaların asılması fikrimizi bir daha təsdiq edir. Əksinə, qırmızı-sarı rənglərin demək olar ki iştirak etmədiyi, qara rənglərin isə üstünlük təşkil etdiyi xalçalarda dünyasını dəyişmiş insanların son mənzilə yola salınması bu sənət nümunəsinin doğum kimi, ölümlə bağlı demoqrafik prosesdə də iştirakını göstərir. Əbəs yerə demirlər: "İnsan xalça üstündə dünyaya gəlir, xalça üstündə də dünyadan köçür".

Çillə xalçaları yuxarıda göstərildiyi kimi, bütün demoqrafik proseslərdə aktiv iştirak edən kosmik informasiya ötürücüsüdür. O, insanların ailə qurmaq, artıb-çoxalmaq, övlad sahibi olmaq kimi təbii istəklərinin qoruyucusudur. Toya qədər də, toydan sonrakı dövrdə də insanları şər qüvvələrdən qoruyan universal müdafiə sistemidir. Günəşin, həyat ağacının al-qırmızı simvolları ilə bəzənmiş xalçalarımız, xüsusilə də, çillə şəddələri gənc qızlar arasında daha çox məşhur idi: Novruz bayramı ərəfəsində cavan qızlar çillə şəddəsini yerə döşəyir, onun üzərində əyləşərək öz arzu və istəklərini diləyirdilər. Sonra, həmin xalçanı ulduzları və səmanı "görərək" onların arzu və istəklərini həyata keçirmələri üçün tam bir həftə ərzində açıq səma altında saxlayırdılar [18.29-30].

Azərbaycan ərazisində rast gəlinən dolmenlər və kromlexlər tədqiqatçıların fikrincə axirət dünyasına və bu dünyaya səyahət edərək ölüləri ədalətlə mühakimə edən, onlara işıq və su aparan Günəş kultu ilə bağlıdır. Kosa-kosa tamaşasının mənşəyi bizim eranın birinci əsrlərinə gedib çıxır. O vaxtlar belə tamaşalar qəbilə miqyasında daha əzəmətli dini ayin mərasimləri şəklində keçirilərək məhsuldarlıq, bolluq, artım və su təsərrüfatı ilahəsi olan Anahitə həsr edilirdi. Qədim əcdadlarımızın keçini günəşin simvolu kimi dəyərləndirməsi fikri də maraq doğurur: Məlumdur ki, tunc dövründə Göygöl rayonunun dulusçuları keçiləri qəbilə totemi və günəş simvolu kimi qara rəngli qablarda təsvir edirdilər. Belə ki, şir, at və qoyun kimi keçi də günəşi təmsil etmişdir. Bu da təsadüfi deyildir, çünki, günəş allahı həmişə bolluq ilahəsinin hamisi olmuşdur.

Qədim əcdadlarımızın keçini günəşin simvolu kimi dəyərləndirməsi fikri də maraq doğurur. Kosa-kosa oyunu bizə gəlib çatmış həmin ayin mərasiminin bir hissəsini təşkil edir və burada məhz keçinin totem kimi seçilməsi də Günəşə sitayişlə bağlıdır. Məlumdur ki, tunc dövründə Göygöl rayonunun dulusçuları keçiləri qəbilə totemi və günəş simvolu kimi qara rəngli qablarda təsvir etmişlər. Qeyd etmək lazımdır ki, od, ocaq da günəşin bir növ yerdəki bölgəsi, təzahür forması sayıldığından həmişə uca tutulub, müqəddəs hesab edilib. Təsadüfi deyildir ki, Azıxantroplar dünyanın ilk süni od istehsal edə bilən ən qədim sakinlərindən hesab olunur, ulu əcdadlarımız odu 550 – 600 min il əvvəl birlikdə fikirləşərək Azıx mağarasına aparmışlar. Təsadüfi deyildir ki, Azərbaycan bütün dünyada "Odlar yurdu" kimi tanınır. İlaxır çərşənbələrdə qalanan tonqallar da elə

günəşə, oda, ocağa tapınmanın aşkar təzahürüdür. Xalqımız günəşin və Novruzun şərəfinə bəzədikləri sonralar xonça adlandırdığımız günəş formasındakı dairəvi günçələrlə də elə günəşə sevgilərini ifadə ediblər. Xalqımız bu gün də oda, ocağa olan ehtiramına sayqı ilə yanaşır. 2015-ci ildə Azərbaycanda keçirilən ilk Avropa oyunları öz başlanğıcına Suraxanıdakı Atəşgahdan götürülən alov ilə başladı.Xalqımızın Günəş kultu ilə bağlı inancları, adət və ənənələri ilə tanış olarkən, bir daha tariximizə, milli-mənəvi dəyərlərimizə və bu dəyərləri yaradan əcdadlarımıza qarşı qəlbində tükənməz sevgi və iftixar hissi baş qaldırır. Hələ ən qədim dövrlərdən üzü bəri oda tapınan, and içərkən "od haqqı" söyləyən, kiminsə hörməti, izzəti haqqında təsəvvür yaradarkən "filankəs ağır ocaqdır " – deyə, fikir yürüdən xalqımız əslində oda, xıza, işığa və bunların ilki olan günəşə bəslədiyi ehtirama, rəğbətə sadiqliyini bir daha nümayiş etdirir. Torpağımızın halal nemətləri ilə bəzədilən Novruz günçələrinə – xonçalarına baxarkən bir daha inanırsan ki, Novruz bayramlarında yanan şamların şöləsində bu gün də yaşayan Günəş kultunun ulu işığından işıq götürən zəngin Azərbaycan mədəniyyəti bəşər tarixinin ən qədim sivilizasiyalarından biridir. Sonralar qədim əcdadlarımız Günəşi özlərinə daha yaxın etmək, "onunla qohum olmaq" üçün bu ulduza xas xüsusiyyətləri özündə cəmləyən, ehtiva edən alov dilimlərini xatırladan butaşəkilli naxışlar yaratmışlar. "Kitabi Dədə Qorqud"da deyilir ki, Oğuz zamanında bir igid evlənsə ox atar, oxu haraya düşsə orada gərdək tikər, adaxlasından ərgənlik bir qırmızı qaftan alardı. Dostlarının da tezliklə toy edərək ev-eşik sahibi olmasını arzulayan igid qırmızı köynəyini geyilmək üçün onlara da verərdi. Banuçiçəkdən qırmızı qaftan alan Beyrək öncə onu özü geyir, sonra isə bu qırmızı qaftanı 40 gün ardıcıl olaraq dostları geyinirlər. Burada qırmızı rəng nəsil artımını himayə və simvolizə edən nəsnə kimi çıxış edir. Azərbaycan xalçalarında qırmızı rəngin üstünlük təşkil etməsi, biləvasitə qaranlığa, şər qüvvələrə qarşı mübarizə aparan, nəsil artımını, toy-düyünü, yeni doğulan uşaqları, zahı qadınları himayə edən Al ruhla sıx şəkildə bağlıdır. Al ruha inam Azərbaycanın bir sıra bölgələrində, adət və ənənələrimizdə bu günədək qorunub saxlanılmaqdadır. Günəş və Ay tutularkən insanlar öz səylərini məhz Al ruhla birləşdirərək, Günəşin "köməyinə yetmişlər". Sözügedən məsələ ilə bağlı N.Rzayev yazır: "Azərbaycanda XIX əsrin sonu – XX əsrin əvvəllərində Al ruhu xeyirxah ruh kimi bədxah ruhlara qarşı qoyulmuşdur. Günəş və Ay tutulan vaxt Al ruhun köməyinə müraciət edilərmiş. İlk növbədə od qalanarmış, atəşfəşanlıq qurularmış, silahlardan atəş açılarmış, sinc və təbil vurularmış ki, Ay yaxud Günəş bədxah ruhların əsirliyindən azad edilsin" [9.42].

Bu gün də, Azərbaycanın bir çox bölgələrində toy-düyün təşkil edilən həyətlərin darvaza və qapılarında qırmızı parçaların asılması, gəlinin belinə qırmızı lentin bağlanması Al ruha olan inamdan irəli gəlir. Azərbaycan xalqı ən qədim dövrlərdən üzü bəri inanırdı ki, Al ruh yeni evə qədəm qoymuş gəlini, yeni doğulan uşağı 40 gün davam edən ağır çillədən himayə edir. Ta qədim dövrlərdən, əcdadlarımız inanrdı ki, əgər qırxlı uşaq evdə tək qalarsa, "cin gəlib onu öz uşağı ilə dəyişdirər. Əgər dəyişdirsə, onda bu dəyişilmiş uşaq həmişə arıq-sısqa olur, heç artıb ağarmır, ömrü boyu ağıldan kəm olur. Belə uşağa "cin dəyişəyi" deyərlər" [2.147].

Ümumiyyətlə, xalqımız toydan sonrakı 40 günü də təhlükəli sayaraq şər qüvvələrdən qorunmaq üçün al qırmızı rənglərin üstünlük təşkil etdiyi xüsusi qoruyucu çillə xalçalarından, çillə şəddələrindən yararlanmışdılar. İnsanlar belə güman edirdilər ki, məhz Al ruhu xatırlayan, onu səsləyən qırmızı rənglər, naxış elementləri bəy və gəlini şər qüvvələrdən qoruyacaq, bu yolla da nəsil artımına öz töhfəsini vermiş olacaqdı. Buradan belə qənaətə gəlmək olar ki, xalçalar özündə əks etdirdiyi rəng çalarlarının daşıdığı inanclar sistemi ilə demoqrafik elementlərə də malik olmuşlar. Başqa sözlə, xalçalar ən qədim dövrlərdə bir növ insanlarla gözəgörünməz xeyirxah və şər qüvvələr arasında informasiya mübadiləsinin daşıyıcısı rolunda da çıxış etmişlər. Ulu əcdadlarımız xalçalarımızdakı isti (günəş rəngləri - qırmızı, sarı, narıncı və s.) və yaxud soyuq (su rəngləri - göy, mavi, yaşıl və s.), o cümlədən axromatik (ağ-qara) rənglərin, müxtəlif naxış və simvolların vasitəsilə şərq qüvvələri ram etməyə, onları öz həyat və məişətlərindən uzaqlaşdırmağa, cilovlamağa cəhd göstərmişlər.

Azərbaycan xalçalarındakı ağac və quş təsvirlərində xalqımızın tarixi demoqrafik baxışları. Azərbaycan xalçalarında tez-tez rast gəlinən ağac – "həyat ağacı"nın təsviri xalqımızın qədim ağac inancı ilə sıx şəkildə bağlıdır. Bu baxımdan Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Mingəçevirdə 1948-1952-ci illərdə aparılan qazıntılar zamanı aşkar edilmiş

qədim məbədə məxsus mehrabın mərkəz hissəsindən tapılmış daş böyük maraq doğurur. Daşın yuxarı haşiyəsində yazı mətni, ondan aşağıda isə hər iki tərəfində tovuzquşu olan zanbağa oxşar bitki təsvir edilmişdir. Həmin bitkini həyat ağacına bənzədən M.Seyidov haqlı olaraq: "Bizcə, ortadakı bitki (bəlkə də zanbaq) müqəddəs bitkinin, Dünya ağacının atributudur. Ağacın ətrafındakı cüt (erkək, dişi) quşlar günəşi, məhəbbəti, sevgini – ailəni təmsil edirlər" [10, 90-91]. Ümumiyyətlə, Azərbaycan xalqının Günəşlə bağlı təsəvvürlərində axirət dünyası bəzən Günəş ölkəsi kimi canlandırılır. Bu təsəvvürlərə görə elə quşlar varmış ki, onlar ölən adamın ruhunu Günəş ölkəsinə aparırlarmış. "Gilqamış və Enkidu" adlı Şumer dastanında Aizud deyilən bir quş təsvir olunur. Aizud – ölümün simvoludur, ona qarşı əbədi həyat – ağac qoyulur. Əslində Novruz xonçasındakı səməni də elə həmin ağacın – həyat ağacının bir simvoludur. Tədqiqatçılar haqlı olaraq Aizud quşunu Azərbaycan nağıllarındakı Zümrüd və yaxud Simurq quşu ilə eyniləşdirir. Məlikməmmədi qaranlıq dünyadan xilas edən ərəb mənbələrində Anka quşu, fars mənbələrində Simurq, türk mənbələrində isə Zümrüdi Anka kimi xatırlanan həmin Aizud quşudur. Azərbaycan xalçalarında tez-tez rast gəlinən müxtəlif quş təsvirləri də deyilənləri bir daha təsdiq edir. Almaniyanın Berlin şəhərində yerləşən Perqam muzeyində XV əsrdə Qarabağda toxunmuş orijinal kompozisiyaya malik kiçik xovlu xalça var. Muzeyin nadir eksponatlarından olan "Əjdaha və Simurq" adlı bu xalça xeyirlə şərin mübarizəsini təsvir edir. Məlumdur ki, hətta bəşər tarixinin ən qədim dövrlərində də Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda qoç, öküz, keçi və digər ev heyvanları ilə yanaşı, günəşin simvolu olan əfsanəvi Simurq quşu da müqəddəs hesab edilmişdir. Qədim əcdadlarımız Simurqu yer üzündə Günəşin mənbəyi, güc və cəsarət "mənbəsi" hesab etmiş, onu nəsil artımını himayə edən, ailə ocağının və dəyərlərinin keşiyində duran, həyatın qoruyucusu hesab etmişlər.

Azərbaycan xalçasında mifik quş təsvirləri



"Əjdaha və Simurq" xalçası

Ulu əcdadlarımızın ağaca sakral bitki kimi yanaşması təbii ki, onun qol-budaq atması, törəyib çoxalması ilə bağlı olmuşdur. Başqa sözlə, ağac və onun xalça üzərindəki təsvirləri ilk növbədə artıb-törəmə, nəsilvermə kimi xüsusiyyətlərini ehtiva edir.

Məşhur türkoloq akademik V.Qordlevski apardığı tədqiqatlar zamanı, azərbaycanlıların qədim ağac inancı ilə bağlı nəticələr əldə etmişdir. Alimin gəldiyi qənaətə görə, tarixən azərbaycanlılar qoşa ağaca, bəzən ağaclığa, ormana tapınır və müqəddəs saydıqları həmin ağacların bir budağını belə sındırmağa cürət etmirdilər. Onlar sitayiş etdikləri ağaclara and içir, ildə bir dəfə isə qurban kəsirdilər [14.245].

Bir çox türk tayfaları hələ ən qədim dövrlərdə uzunömürlülüyü, dözümlülüyü ilə seçilən və bu gün dövlət gerbimizi bəzəyən palıd ağacına səcdə etmişlər: "Palıd ağacına at qurbanı kəsilir, qurban

qanı ağaca çilənir, atın başı və dərisi isə, budaqlarda asılı qalırdı" [6.63]. Maraqlıdır ki, sonrakı dövrlərdə dini dünyagörüşünün dəyişilməsi də ağac inamını sarsıda bilmədi: "Artıq Alp İlitvərin dövründə əski türk ibadətinin dəyişilməsi başlayır, lakin müqəddəs ağaclara, dağdağana, saqqızağaca, dəmirağaca, çinara və qarağaca ibadət Azərbaycanda bu günə qədər mövcuddur". [6.63].

Bəs nə üçün ulu əcdadlarımız palıd ağacına, ümumiyyətlə ağaclara qurban kəsərkən atı seçmişlər? M.Seyidovun fikrincə, dünya ağacı göydən Umay ilahəsi və atla birgə enmişdir [11.178]. Nəzərə alsaq ki, Umay ilahəsi nəsil artımını himayə edən hami mifik obrazdır. O zaman, onun həyat ağacı ilə bağlılığı bir daha təsdiq olunar. Çünki, ağac yuxarıda söylədiyimiz kimi, adətən bir çox xalqlarda, eləcə də türkdilli xalqlarda doğum, nəsil artımı kimi demoqrafik prosesləri ehtiva edən hami məhsuldarlıq ilahəsinin atributudur. Ağacın doğumla, artımla bağlı olmasını, bəzəndə, hətta insanların anası kimi də təsvir və təsəvvür edilməsini Dədə Qorqud eposunda da görmək olar. Belə ki, Basat təpəgözlə vuruşarkən Təpəgöz ondan mənsubiyyətini, hansı qövmdən olduğunu soruşarkən Basat deyir:

Anam adın sorar olsan, Qaba ağac
Atam adın deyirsən, Qağan Aslan
Mənim adım sorursansa, Aruz oğlu Basat.

Gətirilən nümunədən bəlli olur ki, Basatın anası Qaba ağac – yəni, əslində, əvvəldə xatırlanan dünya ağacı, atası isə Qağan Aslan, yəni Günəşdir. Türklərin qədim inancına görə, Qaba ağac qadın Umay – uşaq ilahəsi olduğu kimi, Qağan Aslan isə, kişi başlanğıcı imiş [10.88]. Deməli, Azərbaycan xalçalarında ağacla bərabər, günəşin simvollarından biri sayılan atın, aslanın, keçinin təsviri əslində, ailə modelinin, nəsil artımının göstəricisidir. Bəs, nə üçün milli xalçalarımızda həyat ağacı və onunla bağlı, günəşin tez-tez təsvir edilməsi hadisəsi ilə rastlaşırıq? Çünki, bir çox xalqlarda eləcə də, türkdilli xalqlarda ən qədim zamanlarda belə bir inanc varmış ki, günəş kainatın, insanların yaradıcısı olmuşdur. Dünya ağacı kainatın yaradıcısı olduğu üçün, günəş və onun xalçalardakı buta şəklində təsviri də sevib-sevilmək, məhəbbət ehtirasını, həyat qüvvəsini, artıb-törəməni ehtiva edir.

Azərbaycan xalçalarında ağac təsvirləri

Azərbaycan xalçalarındakı qönçə və buynuz elementlərində xalqımızın tarixi demoqrafik baxışları. Xalçalarımızda ən çox rast gəlinən bəzək, naxış elementlərindən biri də

qönçədir. M.Seyidovun fikrincə, qönçə elə butanın özüdür: "Qönçənin şəklinə diqqət yetirsək, görərik ki, onun odla, istiliklə bağlı olduğunu gözə çarpdırmaq üçün xalq sənətkarları – naxışçılar, memarlar, xalçaçılar, dulusçular və b. onun başını sağa əymişlər [10.131]. Bəs nə üçün xalça ustaları qönçənin başını sağa əymişlər? M.Seyidov bu suala cavab verərək: "Bu da təsadüfi deyildir. Bəllidir ki, oğuzlarda sağ həm də günçıxanın (gündoğanın) rəmzi imiş. Günçıxan isə günəşlə bağlıdır. O, belə qənaətə gəlir ki, buta istiliklə, odla, Günəşlə, Dünya ağacı ilə də bağlıdır [10.131].

Qədim Şərq mifologiyasında da Günəşlə Dünya ağacı həmişə bir-biri ilə vəhdətdə təsvir edilir. M.Matye qeyd edir ki, bir çox qədim mifoloji inanclar sistemində kəhkəşanın, kainatın yaranması ağacla əlaqələndirilir. Belə inancların birinə görə bir vaxtlar zülmətdə olan Günəşin övladı hündür bir yüksəkliyin üzərində ucalan lotosun-şangülün ləçəklərində əmələ gəlmişdir. Şmunu şəhərinin yaxınlığındakı yüksəklikdə - təpədə bitmiş şanagül beləcə gənc Günəş ilahəsinə can vermişdir. Onun ləçəkləri arasında müqəddəs uşağın əyləşdiyi şanagül çiçəyinin təsvirinə isə Roma dövrünə qədərki, əsatirlərdə təsadüf olunur [16.15-16].

R.Tağıyeva, əslində nəbati naxış olan şanagüllənin – lotosun, Azərbaycan xalçalarında tez-tez rast gəlinən həndəsi təsvirini buynuz elementi ilə eyniləşdirir ki, bu da təsadüfi deyildir. Hələ, ən qədim zamanlardan Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda qoç, öküz, keçi və s. bu kimi heyvanlar müqəddəs sayılarmış. Qoyunun müqəddəs heyvan olması çox qədim dövrə aiddir. Azərbaycanda e.ə. I minilliyin əvvəllərinə aid qabların üzərində verilmiş qədim qoyun təsvirləri, Qaratəpədə ikinci mədəni təbəqədən tapılmış 10-a qədər xırdabuynuzlu heyvan fiquru, bu deyilənləri bir daha sübut edir.

Azərbaycanda geniş otlaq sahələrinin, əlverişli iqlim şəraitinin mövcudluğu hələ ən qədim zamanlardan qoyunçuluğun və maldarlığın inkişafı üçün əlverişli zəmin yaratmışdır. Qədim Azərbaycanda qoyunçuluğun inkişafı və maldar əhalinin mühüm gəlir mənbəyinin olması, ona olan dini etiqadı da xeyli artırmışdır. Başqa sözlə, qoyuna sitayiş daha çox qoyunçuluqla məşğul olan xalqlar arasında, o cümlədən Azərbaycanda geniş yayılmışdır [15.306].

Xalqımız tarixən təbiətimizə və iqlimimizə əlverişli şəkildə uyğunlaşmış, tez artıb çoxalan, südü, yunu, əti ilə güzəranını yaxşılaşdıran, maddi rifahını yüksəldən qoyunçuluğa mühüm təsərrüfat sahəsi kimi yanaşmışdır. Tarixən, əhali artımının maddi nemətlərin bolluğu ilə bağlılığını nəzərə alsaq, deyə bilərik ki, bu sahənin inkişafı demoqrafik artımımıza da həmişə müsbət şəkildə təsir göstərmişdir. Azərbaycan xalqı bu bərəkətli heyvanı daima şifahi xalq ədəbiyyatı və tətbiqi incəsənətin bir çox sahələrində, o cümlədən xalçaçılıq sənətində vəsf etmişdir. Təsadüfi deyildir ki, əsrlər boyu Qarabağda toxunmuş rəngarəng xalçalar içərisində, öz kompozisiyasına görə seçilən xalçalardan biri də xalq arasında "Buynuz" adı ilə şöhrətlənən sənət nümunələri olmuşdur. Bu xalçalarda naxış elementlərinin əsas formasının stilizə edilmiş qoç buynuzu olması, xalqımızın qədim qoç onqomu – totemi ilə bağlıdır.

Qarabağ xalçaçılıq məktəbinə aid nümunələrdə (“Qasımuşağı” və “Qoçbuynuz Xanlıq”) buynuz elementləri

Ümumiyyətlə, xalçaçılıq sənəti sırf qoyunçuluq təsərrüfatı ilə bağlı olduğu üçün, qoyun yunundan hazırlandığı üçün xalqımızda bu heyvana xüsusi münasibət, qayğı və həssas yanaşma olmuşdur. Qədim folklor nümunələrindən birində oxuyuruq:

Hər evi mən yunum ilə bəzərəm,
Ağır-ağır xalçalarım var mənim,
Allı-güllü xonçalarım var mənim! [1.12].

Gətirilən nümunədə, qədim el-oba sənəti olan xalçaçılığın xalqımızın məişət və dolanışığı, eləcə də gənc oğlan və qızlarımızın ailə qurmaq istəyi aydın şəkildə öz əksini tapıb. Belə ki, ərə getməyə hazırlaşan qızlara hələ gənc yaşlarından özləri üçün cehizlik xalça, palaz, kilim toxumağı öyrədərdilər. Hana arxasında əyləşən qızlar isə, toxuduqları xalçalara hər dəfə zərif barmaqları ilə yeni ilmələr saldıqca gələcək ömür-gün yoldaşlarının övladcanlı, övladlarının isə sağlam, ağıllı və zəhmətsevər olmaları ilə bağlı arzu, istək və diləklərini köçürərdilər. Əslində, xalçaçılıqla məşğul olan gənc qızlarımız bir növ gələcək ailələrinin maddi təminatı prosesində biləvasitə iştirak etmiş olur, incə, estetik zövq, böyük səbr, gərgin əmək tələb edən işi yerinə yetirərək ailə həyatı və quruculuğuna da, mənəvi-psixoloji baxımdan hazırlaşmış olurdular. Elə, yuxarıda gətirilən folklor nümunəsindəki “allı-güllü xonçalarım var mənim” ifadəsi də toy-düyün xonçalarına, yeni qurulacaq ailələrə, əhali artımına bir işarədir.

Yuxarıdakı folklor nümunəsində, şərti olaraq qoyunun “hər evi mən yunum ilə bəzərəm”, - deyə “söyləməsi” isə demək olar ki, hər bir azərbaycanlı ailəsində hana, kirkidin, eləcə də çeşid-çeşid çoxsaylı xalçaların olmasına işarədir. Digər bir folklor nümunəsində isə:

Qoyunlu evlər gördüm,
Qurulu yaya bənzər,
Qoyunsuz evlər gördüm
Qurumuş çaya bənzər [1.16].

– deyə, söylənməsi isə,qoyunçuluğun, bu sahə ilə bağlı xalçaçılıq sənətinin ailələrin maddi güzəranında, dolanacağında, yeni bağlanacaq nikahların dinamikasında, doğulacaq uşaqların, bir yaşa qədər baş verə biləcək uşaq ölümünü, miqrasiya və digər bu kimi demoqrafik proseslərin inkişafında ola biləcək dəyişikliklərdəki rolunu aydın şəkildə göstərir.

Zaman-zaman xalqımız nəinki qoyun yunundan hazırlanan xalçalara, eləcə də qoyun dərisindən hazırlanan papaqlara belə yüksək ehtiramla yanaşmışdır: “Deyilənlərə görə, ta qədimlərdən xalqımızın sevinc soraqlı, ümid müjdəli belə bir maraqlı adəti də olubdur. El yolunda ağır yara alanların, sağalmaz dərdə mübtəla olanların arzusu ilə, onun yastığının altına, ya da lap gözünün qabağına papaq qoyarlarmış. Baba xilqəti, ata vüqarı, əmi-dayı yadigarı, qardaş nişanəsi olan papaq ...xəstənin qəlbinə toxtaqlıq, sağalmaq arzusuna şam-çıraq tutarmış. Qeyrətə sonsuz inam və ehtiram xəstəni şər qüvvələrdən qoruyar, onu sağaldarmış” [3. 202]. Göründüyü kimi, qoyun ailənin bir çox problemlərini çözdüyü, tələbatını ödədiyi, ən əsası isə əhali artımı və yenilənməsi prosesində fəal iştirak etdiyinə görə, xalqımız xalçaçılıq sənətinin texniki imkanlarını, bədii xüsusiyyətlərini nəzərə alaraq qoyunçuluğa, bu zərif hevana olan ehtiramını qoç buynuzu formasında xalçalarımızda əbədiləşdirmişdir. Məhz bu səbəbdəndir ki, bir çox xalçalarımızda buynuz elementi sxematikləşmiş və bəzən də, nisbətən əyri xətlərlə işlənmiş şəkildə təsvir edilmişdir.

Nəticə. Xalça ustaları xalçanın əsas elementi olan buynuzu daha qabarıq nəzərə çatdırmaq üçün, onu böyük ölçüdə də toxumuşlar. Ara sahədə böyük ölçülü buynuz təsviləri son dərəcə rəvan, axıcı və səlis bir tərzdə düzülərək kontras rənglərin, plastikanın köməyi ilə kamil bir kompozisiya əmələ gətirirlər. Buynuz xalçalarındakı rəng şuxluğu, elementlərin sıralanmasındakı axıcılıq, xalqımızın qoyunçuluq təsərrüfatı ilə bağlı həyat ritmini, ailəcanlılığını, həyata və ətraf mühitə

sevgisini, mənsub olduğu ocağa, Vətənə sevgisini ilmələrin dili ilə real bir şəkildə əks etdirir. Deməli, Azərbaycan xalçası nəinki Vətən tariximizi, o cümlədən demoqrafik xüsusiyyətlərimizi milli naxışlarımızda etibarlı şəkildə əks etdirən və qoruyan, nəsillərdən nəsillərə ərməğan olan müqəddəs bir parçasıdır.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan folkloru antologiyası. İki cilddə. I kitab. Bakı: AzSSR EA, 1968, 290 s.
2. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1988, 196 s.
3. Bünyadov T. Zirvəqala. Bakı: Gənclik, 1988, 264 s.
4. Cəbiyev Q. Arxeologiya və romantika. Bakı: Gənclik, 1990, 128 s.
5. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində. Bakı: İşıq, 1980, 165 s.
6. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı: Azərnəşr, 1997, 120 s.
7. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı: Azərnəşr, 1993, 83 s.
8. Kərimov L. Buta anlayışı və onun formaları. "Qobustan" məcmuəsi, 1970, №3.
9. Rzayev N. Əsrlərin səsi. Bakı: Azərnəşr, 1974, 80 s..
10. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
11. Seyidov M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik 1994, 231 s.
12. Şardən J. Səyahətnamə. Bakı: Elm, 1994, 96 s.
13. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı: Elm və təhsil,2016, 480 s.
14. Гордлевский В.А. Избранные сочинения. Т.1. Москва: Из-во Вост-лит, 1960, 552 с.
15. Крупнов Е.И. Древняя история северного Кавказ. Москва: АН СССР, 1960, 520 с.
16. Матье М.Э.Древнеегипетские мифы. Москва-Ленинград: Изд-во АН СССР, 1956, 173с.
17. Пассек Т.С. Первые земледельцы. // По следам древних культур. Москва: Госиздат,1951, 49-71 с.
18. Тагиева Р. Азербайджанский ковер: происхождение и символика. Наследие, №3 (75),2015, 24-31 с.
19. Якубовский А.Ю. Древний Пянджикент. // По следам древних культур. Москва:Госиздат, 1951, 209-270 с.